**Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mənzil Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 8, maddə 612; 2011, 12, maddə 1108; 2012, 6, maddə 501; 2017, 5, maddə 732, 7, maddə 1298; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1253-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 6.0.2-ci, 17.2.1-ci, 20.5-ci və 138.3-cü maddələrdə “özəl” sözü “xüsusi” sözü ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 10.0.8-1-ci və 10.0.8-2-ci maddələr əlavə edilsin:

“10.0.8-1. çoxmənzilli binanın idarə edilməsi qaydasını müəyyən etmək;

10.0.8-2. çoxmənzilli binanın idarə edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi qaydalarını müəyyən etmək;”.

3. 41.6-cı maddədə “üstün hüquqa” sözləri “üstünlük hüququna” sözləri ilə əvəz edilsin.

4. 44.3-cü maddədə “(kvorum yaranır). Kvorum” sözləri “(yetərsay yaranır). Yetərsay” sözləri ilə və “təkrar” sözü “yenidən” sözü ilə əvəz edilsin.

5. 109.5-ci maddədə “kooperativi qanunvericiliklə müəyyən olunmuş qaydada ləğv edilməli və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməlidir” sözləri “kooperativinin qanunla müəyyən olunmuş qaydada ləğvi və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməsi barədə qərar qəbul edilərək, hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında qanunvericiliyə uyğun olaraq zəruri tədbirlər görülməlidir” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 dekabr 2018-ci il
1394-VQD